**UOT: 33, 332.3**

**Abbas Səfərov**
***Aqrar Tədqiqatlar Mərkəzi, dissertant***
*e-mail: abbas211@mail.ru*

# AZƏRBAYCANDA KƏND TƏSƏRRÜFATININ TRANSFORMASİYASI STRATEGİYASININ KONSEPTUAL ASPEKTLƏRİ

*Məqalədə Azərbaycanda kənd təsərrüfatının transformasiyası prosesinin kompleks təhlili və onun rəqabət qabiliyyətinin qiymətləndirilməsi əsasında keyfiyyətli artıma və institusionallaşmanın səmərəliliyinin artırılmasına maneçilik törədən neqativ sistemyaradan amillər aşkar edilmişdir. Eyni zamanda, müxtəlif strategiyaların məzmunu və nəticələrinin müəyyənləşdirilməsinə əsaslanaraq strateji idarəetmə obyektinin iqtisadi modeli verilmişdir.*

*Məqalədə aqrar sferanın inkişafını təmin edən əsas məqsədlərin kombinasiyasından ibarət məqsədlər ağacı və onun elementlərinin fəaliyyətinin təşkil edilməsi əsasında aqrar sahədə transformasiya proseslərinin strateji idarə edilməsinin konseptual modeli tərtib edilmişdir.*

***Məqsəd* -** aqrar sahənin inkişafını təmin edən əsas məqsədlərin kombinasiyasından ibarət məqsədlər ağacının qurulması və aqrar sahədə transformasiya proseslərinin strateji idarə edilməsinin konseptual modelinin tərtib edilməşidir.

***Metodologiya* -** tədqiqat işində iqtisadi-statistik və müqayisəli təhlil metodlarından istifadə edilmişdir.

***Tədqiqatın nəticələri* –** müxtəlif strategiyaların məzmunu və nəticələrinin müəyyənləşdirilməsinə əsasında strateji idarəetmə obyektinin iqtisadi modeli verilmiş, aqrar sahədə transformasiya proseslərinin strategi idarə edilməsinin konseptual modelinin əsas üstünlüklrə qeyd edilmişdir.

***Açar sözlər:*** *kənd təsərrüfatı, transformasiya, strategiya, səmərəlilik, məqsədlər ağacı, konseptual model*

## Giriş

Bazar münasibətlərinin institusionallaşdırılması şəraitində kənd təsərrüfatının transformasiyası strategiyası onun iqtisadi inkişafının yeni keyfiyyət mənbələrinin şərt və amillərindən istifadə etməklə kənd əhalisinin həyat səviyyəsinin yüksəldilməsinin müsbət dinamikasını təmin etmək imkanı ilə xarakterizə olunur. Kənd əhalisinin həyat səviyyəsinin yüksəldilməsinin bu müsbət dinamikası iqtisadi inkişafın yeni keyfiyyət mənbələrinin, o cümlədən ölkə ərazisində lokallaşdırılmış sosial, təbii resurs, investisiya və infrastruktur potensialının tarazlaşdırılmış təkrar istehsalının həyata keçirilməsi əsasında təmin edilə bilər. Ümumilikdə, strateji dedikdə, ölkə siyasətinin uzunmüddətli aspektində iqtisadi inkişafın məqsəd və vasitələrinin nisbəti başa düşülür [13, s.53-57].

Bir sıra ədəbiyyatlarda strategiyanın konsepsiyası anlayışının aşağıda qeyd edilən beş istiqamətin birləşməsi kimi təyin edilməsi təklif edilir:

- fəaliyyət planının strateji məqsədləri;
- rəqiblərə hiylə işlətməklə onların fəaliyyətinin qarşısının alınmasına planlaşdırılmış hərəkətlərin ört-basdır edilməsi;
- fəaliyyətin ardıcıllığı, yəni plan həyata keçirilə bilər, lakin istənilən halda fəaliyyət ardıcıllığının təmin edilməsi;
- ətraf mühitdəki mövqe, yəni əhatə dairəsi ilə əlaqə səviyyəsinin müəyyən edilməsi;

- perspektivə nail olunması, yəni lazımi vəziyyəti öncədən görə bilməklə mövcud şərait üçün istiqamətləndirilməsi [9, s. 221-235].

İqtisadiyyatın sahə aspekti baxımından strateji idarəetmə insan potensialına söykənən fəaliyyəti əks etdirir, kənd təsərrüfatı məhsulu istehsalçılarını təsərrüfat subyektlərinin və idarəetmə obyektlərinin iqtisadi münasibətlərinin uyğunlaşdırılması, bazar mühitinin inkişafı, təsərrüfat formalarının müxtəlifliyi, uzunmüddətli perspektivdə məqsədə nail olmaq üçün rəqabət üstünlüklərinin artırılması vasitəsilə istehlakçıların sorğularına orientasiya edir.

**Kənd təsərrüfatının inkişaf strategiyaları və onların tətbiqindən gözlənilən nəticə**

Strategiyanın formalaşdırılması kənd təsərrüfatı istehsalının tətbiq edilməsi sistemlərinin çoxformalı xüsusiyyətləri şəraitində həyata keçirilir, buradan isə onların təsnifləşdirilməsinin çoxcəhətliliyinin işlənilməsinin vacibliyi şərtlənir (şəkil 1) [10, s.168; 12, s.156-159]. Azərbaycanda kənd təsərrüfatının transformasiyası prosesinin kompleks təhlili və onun rəqabət qabiliyyətinin qiymətləndirilməsi keyfiyyətli artıma və institusionallaşmanın səmərəliliyinin artırılmasına maneçilik törədən neqativ sistemyaradan amilləri aşkar etməyə imkan vermişdir ki, bunlara da əsas fondların yüksək dərəcədə aşınması; əsas kapitala yönəldilən investisiyaların aşağı səviyyədə olması; qeyri-effektiv məşğulluq, əməyin zəif motivasiyası və əmək bazarının qeyri-qənaətbəxş vəziyyəti səbəb olur. Lakin, qeyd edək ki, Azərbaycanda kənd təsərrüfatının səmərəli inkişaf strategiyasının seçilməsi onun bilavasitə güclü və zəif tərəflərilə şərtləndirilir. Beləliklə, kənd təsərrüfatının fəaliyyətinin SWOT təhlini aparmaqla, onun nəticələrinə təsir edə biləcək əlverişli və əlverişsiz xarici hadisələri üzə çıxarmaq mümkündür (şəkil 2).

Aqrar sahənin mövcud inkişaf strategiyasının təhlili göstərir ki, burada əsas məqsəd bütün kənd əhalisinin həyat keyfiyyətinin yüksəlməsində istehsal potensialının modernləşdirilməsi əsasında kənd təsərrüfatının dayanıqlı inkişafının təmin edilməsidir. Azərbaycanda aqrar sahənin inkişafının prioritet istiqamətləri həm xüsusi spesifikaya malikdir, həm də bir-birindən əhəmiyyətli dərəcədə fərqlənir, lakin onun subyektlərinin əksər hissəsi iqtisadiyyatın resurs-enerji qənaətliliyi əsasında modernləşdirilməsini əsas istiqamət olaraq seçirlər. Belə ki, məsələn, kənd təsərrüfatı və emalı sənayesi məhsullarının innovasiya səviyyəsi və rəqabət qabiliyyətinin artırılması şərtləri əsasında istehsal potensialının gücləndirilməsinin prioritet istiqamətləri müəyyən edilmişdir ki, bunlara da kənd təsərrüfatı istehsalçılarının yeni texnika, maşın və avadanlıqlarla təmin edilməsi səviyyəsinin yüksəldilməsi və aqroservis xidmətləri bazarının genişləndirilməsi; maliyyəyə çıxışın asanlaşdırılması, yerli və xarici investorların kənd təsərrüfatı istehsalına daxil olmasını motivasiya edən əlverişli şəraitin yaradılması; innovativ texnologiyaların tətbiqilə beynəlxalq standartlara uyğun kənd təsərrüfatı məhsulların istehsalı, emalı və infrastrukturun inkişafı əsasında istehsalçıların yerli və xarici bazarlara çıxışının asanlaşdırılması; istehsal vasitələri bazarının inkişafı və xidmətlərlə təminat səviyyəsinin yüksəldilməsi; aqrar sahədə dövlət tənzimlənməsi və biznes mühitinin təkmilləşdirilməsi; regionlarda məşğulluğun artırılması və əhalinin həyat səviyyəsinin yüksəldilməsinə təkan verən alternativ fəaliyyət sahələrinin inkişafı; kənd təsərrüfatı əkinlərinin vəziyyətinin aqrokimyəvi monitorinqinin tədqiqatı və s. aiddir.

Fikrimizcə, bəzi ölkələrin nisbətən yüksək əlavə dəyəri olan xidmətlər sektoruna keçid etməyə cəhd etməsinə baxmayaraq kənd təsərrüfatı sektorunda sahədaxili modernləşdirilmədən əldə ediləcək potensial faydanı nəzərdən qaçırmaq olmaz. Halbuki, digər inkişaf etməkdə olan ölkələrdə əmək məhsuldarlığının artırılması hesabına iqtisadiyyatda

aparılacaq struktur dəyişikliklərini təşviq etməkdə kənd təsərrüfatı sektoru mühüm rol oynayır**.** Belə ki, sistemli şəkildə aqrar sahənin transformasiyası həm kənd təsərrüfatının ilkin sektorlarında məhsuldarlığı artırır, həm də kənd təsərrüfatı məhsullarının sənayeləşməsinə və emalına ciddi təkan verir, bu da istesal sahəsində məhsulların istehsalat-satış zəncirlərinin inteqrasiyası prosesini asanlaşdırır.




**Şəkil 1. Kənd təsərrüfatı sferasında strategiyalar: növləri, məzmunu və tətbiqindən gözlənilən nəticə**

*Qeyd:* [7, s.97-115; 8, s. 76-81] əsasında müəllif tərtib etmişdir

| **Daxili mühit** | **Xarici mühit** |
|---|---|
| Üstünlüklər (güclü tərəflər)<br>1.İqtisadiyyatın diversifikasiyasının nisbətən yüksək səviyyəsi<br>2.Əhalinin kənd təsərrüfatı və əkin torpaqları ilə yüksək təminatı<br>3.Torpaqların yüksək təbii münbitliyi<br>4. Azərbaycanın meyvə, tərəvəz, çay və üzüm yetişdirmədə regional üstünlüyü<br>5. Kiçik təsərrüfatçılıq formalarının inkişafı<br>6. Ölkələr arası ticarət əlaqələrinin inkişafında coğrafi mövqeyinin əlverişliliyi<br>7. Kənd təsərrüfatı mütəxəssislərinin keyfiyyətli hazırlanması təminatının mövcudluğu | Çatışmazlıqlar (zəif tərəflər)<br>1. Rayonların sosial-iqtisadi inkişaf səviyyəsinə görə fərqləndirilməsi<br>2. Texniki və texnoloji sənayenin geriliyi<br>3. Menecmentin yüksək ixtisas səviyyəsinin nisbətən aşağı olması<br>4. Kəndlərdə işsizliyin yüksək səviyyəsi<br>5. Kənd əhalisinin aşağı gəlir səviyyəsi<br>6.Marketinq və logistika infrastrukturunun inkişaf etməməsi |
| Əlverişli imkanlar<br>1. Mülkiyyət hüquqlarının müdafiəsi institutlarının inkişafı<br>2. Qonşu və xarici ölkələrlə qarşılıqlı tərəfdaşlıqdan toplanmış potensial<br>3. Aqrar iqtisadiyyatın innovasiyalı inkişaf yoluna keçməsi üzrə vahid strategiyanın işlənilməsi əsasında innovasiya fəaliyyətinin aktivləşdirilməsi<br>4. Xarici investisiyaların cəlb edilməsi | Potensial təhlükələr<br>1. İşğaldan azad olunmuş ərazilərdə dövlət idarəçiliyi üzrə mövcud çətinlər<br>2. Kənd təsərrüfatı istehsalının təbii amillərdən asılılığı<br>3. Kənd təsərrüfatı məhsullarının qiymət dispartetinin daha da gücləndirilməsi<br>4. Kənd təsərrüfatı istehsalçılarının təbiət və s. hadisələrdən sığortalanmaması |

**Şəkil 2. SWOT təhlilinin cəmlənmiş matrisi**
*Qeyd:* müəllif tərəfindən hazırlanmışdır

Kənd təsərrüfatı sektorunda məhsuldarlığın aşağı səviyyədə olmasına baxmayaraq, ümumi işçi qüvvəsinin əsas hissəsi hələ də bu sahədə məşğuldir, bu sektorda məhsuldarlığın artırılması potensialı özündə milyonlarla kiçik torpaq sahibinin və kənd əhalisinin yoxsul vəziyyətdən çıxmasına əlverişli imkan yaradır. Bu proses, həmçinin, kənd təsərrüfatı istehsalı prosesində təbii ehtiyatlardan istifadənin səmərəliliyinin artırılması hesabına dayanıqlı inkişafa imkan yaradır ki, bu da öz növbəsində, mənfi xarici təsirləri azaldır.

Son on il ərzində tariflərin ləğvi sayəsində ticarət xərclərinin əhəmiyyətli dərəcədə azalmasına baxmayaraq, Mərkəzi Asiya ərazisində yerləşən keçmiş sovetlər ittifaqı ölkələrində qeyri-tarif ticarət xərcləri nisbətən yüksək olaraq qalır. Reytinq tərtib edilərkən malların bir hissəsinin ümumi ixrac və idxal prosesi çərçivəsində prosedurların üç dəsti: sənədləşmə tələblərinə riayət olunması, sərhəd nəzarəti və daxili daşımalar ilə bağlı olan vaxt və xərclər (tariflər istisna olmaqla) ölçülür.

2002-ci ildən etibarən mütəmadi olaraq dünya ölkələrinin (190 ölkədə) 11 göstərici əsasında müqayisəli təhlili aparılır və onların əldə etdiyi göstəriciləri əsasında reytinq cədvəli tərtib edilir. Dünya Bankının “Diong Business 2020” hesabatında biznesin asan aparılması istiqamətindəki təhlilin nəticəsinə əsasən 2019-cu ildə Azərbaycan bu göstəriciyə görə 190 ölkə sırasında 25-ci yer almış və 96,2 bala qədər yüksəlmişdir. Bu göstəriciyə görə 2020-ci ildə Azərbaycan 9 pillə reytinqini aşağı salmış və 34-cü sırada yer almışdır.

Keçmiş sovetlər ittifaqı və Avropa-Mərkəzi Asiya ölkələrində biznesin asan aparılması göstəriciləri üzrə fərqli reytinq sıraları əldə edilmişdir. Məsələn, müqayisə edilən ölkələr içərisində kreditin alınması üzrə 1-6-cı yerlərdə Azərbaycan -100 bal və ya 1 pillə, Gürcüstan -85 bal və ya 15-ci pillə, Rusiya-80 bal və ya 25-ci pillə, Ukrayna-75 bal

və ya 37-ci pillə, Avropa-Mərkəzi Asiya ölkələri-72,2 bal və Belarus-50 bal və ya 104-cü pillədə yerləşmişlər. Kreditin alınması göstəricisi üzrə bu ölkələr içərisində Türkiyə və Polşa hər biri 37 bal almışlar [15, s.30-35].

Tədqiqat işi kənd təsərrüfatının transformasiyası strategiyasının konseptual aspekt-lərini və onların reallaşdırılması mexanizmini əsaslandırmağa imkan vermişdir ki, bu da institusional parametrlərin keyfiyyətli inkişafının göstəricisidir.

**Aqrar sahənin inkişafının məqsədlər ağacı**

Əsas məqsədə nail olmaq, gələcəkdə aqrar sahənin inkişafına təkan verə biləcək ölkənin resurs potensialını müəyyənləşdirən özəl hədəflərin reallaşdırılmasını nəzərdə tutur. Beləliklə, aqrar sahənin inkişafını təmin edən formalaşdırılmış əsas məqsədlərdən ayrı-ayrı məqsədlər irəli gəlir və onların kombinasiyasından ibarət məqsədlər ağacını tərtib etmək olar (şəkil 3).




**Şəkil 3. Aqrar sahənin inkişafının məqsədlər ağacı**
*Qeyd:* müəllif tərəfindən tərtib edilmişdir

Aqrar sahənin məqsədlər ağacının elementləri aşağıdakı məzmuna malikdir.

1. Kənd təsərrüfatı və emal sənayesinin istehsal potensialının modernləşdirilməsi-mütərəqqi texnika və texnologiyaları əldə etməklə ərzaq təhlükəsizliyinə və iqtisadiyyatın diversifikasiyasına nail ola bilən, damazlıq heyvandarlığın,elit toxumçuluğun inkişafını həyata keçirmək imkanına malik olan dövlət-özəl informasiya təminatı sisteminin yaradılması ilə rəqabətqabiliyyətli innovativ-özünü təmin edən, ixrac-yönümlü kənd təsərrüfatı və emal sənayesinin yaradılmasını ehtiva edir.

Bu elementin fəaliyyətində aşağıdakıların icrası nəzərdə tutulur: -kənd təsərrüfatının maddi-texniki bazasının yenidən qurulmasını həyata keçirmək, kənd təsərrüfatı texnikalarının lizinq sistemini genişləndirmək; -xarici ölkələrdən kənd təsərrüfatı texnikası idxalının davam etdirilməsi çərçivəsində gələcəkdə onların yerli istehsalının həyata keçirilməsi məqsədi ilə ölkə ərazisində müştərək zavodların yaradılması istiqamətində addımların atılması; -enerji və resurs-qənaətli yeni nəsil texnika və texnologiyalardan istifadə etməklə kənd təsərrüfatı bitki-lərinin istehsalı və emalının təşkili; -marketinq araşdırması əsasında ilk növbəli sahə inno-vasiya layihələrinin siyahısını müəyyən etmək; -yerli kənd təsərrüfatı istehsalçıları üçün ekoloji təmiz məhsul istehsalının subsidiyalaşdırılmasını həyata keçirmək; -innovativ məhsul və texnologiyalara olan tələbatın və kənd təsərrüfatı məhsullarının təbliğinə marketinq dəstə-

yinin öyrənilməsi məqsədi ilə monitorinq sisteminin yaradılması; - dənli və dənli paxlalı bitkilərin xüsusi çəkisinin artırılması hesabına əkin sahələrinin strukturunun təkmilləşdirilməsi, yem bitkiləri və günəbaxan sahələrinin optimallaşdırılması; -kənd təsərrüfatı bitkilərinin seleksiya nailiyyətlərindən və toxumçuluq sistemindən səmərəli istifadə etmək; - çoxillik otların və sideral bitkilərin əkinlərinin artırılması hesabına torpağın münbitliyinin bərpası üzrə tədbirlərin, əkinçiliyin biolojiləşdirilməsinin nailiyyətlərinin təmin edilməsi; - alaq otları, xəstəliklər və ziyanvericilərdən bitkilərin qorunması tədbirlərinin effektivliyini artırmaq; - bütün növ heyvanların və quşların məhsuldarlığının yüksəldilməsini təmin etmək, seleksiya-damazlıq işinin yaxşılaşdırılması yolu ilə iri buynuzlu mal-qara və quşların sayının artımını sabitləşdirmək, heyvanların saxlanılma və yemlənmə, həmçinin iqtisadi zonalar üzrə səmərəli yerləşdirmə texnologiyasını təkmilləşdirmək.

2. Kənd təsərrüfatı və əkin torpaqlarının meliorasiyası. Bu elementin icrası təbii mühitin uzunmüddətli komponentlərinin yaxşılaşdırılması, torpağın münbitliyinin qorunması və artırılması, həmçinin hidromeliorasiya sistemlərinin etibarlı istismarının təmin edilməsi əsasında heyvandarlığın möhkəm və sabit yem bazasının yaradılması üçün suvarılan əkinçiliyin qorunub saxlanmasını və inkişafını təmin edəcəkdir. Burada Azərbaycanın quraqlıq rayonlarında kənd təsərrüfatı istehsalının sabitləşdirilməsi, yem istehsalı, meyvə-tərəvəz və s. məhsulların yetişdirilməsi üçün meliorasiya-su təsərrüfatı kompleksi mühüm amil kimi çıxış edir. Aqrar sahənin inkişafının strateji yol xəritəsinin [1] və qəbul edilmiş dövlət proqramının [2] həyata keçirilməsi suvarılan torpaqlarda kənd təsərrüfatı məhsullarının istehsal həcminin artırılması hesabına Azərbaycanın dayanıqlı iqtisadiyyatının təmin edilməsinə və ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə imkan verəcəkdir.

Qeyd olunan elementin fəaliyyəti aşağıdakılarla şərtləndirilir: -ölkədə mövcud meliorasiya sistemi fondunu saxlamaq və işləmə qabiliyyətini təmin etmək;- suvarma sistemlərini qaydaya salmaq, onları suvarma texnikası və müasir texniki vasitələrlə təchiz etmək;- kənd təsərrüfatı bitkilərinin suvarılması üsul və texnologiyalarının təkmilləşdirilməsinə, torpaqların münbitliyinin qorunması və suvarmanın mənfi ekoloji nəticələrinin (qrunt sularının toplanması səviyyəsinin artırılması, ərazilərin subasması halları və s.) qarşısının alınmasına istiqamətlənmiş işlərin proqramını yerinə yetirmək; - kiçik ölçülü çiləmə-suvarma texnikasından hərtərəfli istifadə məqsədilə suvarılan sahələrin yenidən qurulmasını həyata keçirmək; -ölkənin idxaldan ərzaq asılılığının və yerli istehsal ərzaq məhsullarının daimi çatışmazlığının qarşısını almaq.

3. Kiçik aqrar sahibkarlığına dövlətin, QHT-nin dəstəyi, formalaşması və inkişafı. Vətəndaşları müstəqil sahibkarlıq fəaliyyəti həyata keçirməyə sövq edən şəraiti yaratmaq, Azərbaycanın aqrar sahəsində səmərəli fəaliyyət göstərən kiçik və orta tipli müəssisələrin keyfiyyət və kəmiyyət artımına nail olmaq mümkündür. Çünki, kənd təsərrüfatı məhsullarının ümumi dəyərində fermerlərə təhkim edilmiş torpaq və məhsul istehsalı payı yüksək səviyyədədir. Ölkənin sosial-iqtisadi inkişafında kiçik və orta aqrobiznesin rolunun əhəmiyyətli dərəcədə artırılması onların əmək məhsuldarlığının yüksəldilməsi hesabına mümkündür [3, s.85-89].

Üçüncü elementin fəaliyyəti zamanı aşağıdakılar təmin edilməlidir: -sahibkarlıq subyektlərinin fəaliyyətinin hüquqi, təşkilati və analitik təminatının inkişafına yardım etmək; -kiçik və orta aqrobiznesin inkişaf etdirilməsində prioritet istiqamətlərə maliyyə dəstəyini stimullaşdırmaq; -əhalinin şəxsi yardımçı təsərrüfatlarının, bu təsərrüfatlarda istehsal olunmuş kənd təsərrüfatı məhsullarının tədarük sisteminin, köməkçi sahələrin və istehsalatların inkişafına daxil olan kənd əhalisinin həyat keyfiyyətinin, kəndin sosial inkişafının yüksəldilməsinə əlverişli şəraiti formalaşdırmaq; - kiçik biznes subyektlərin mikrokreditləşmə sisteminin inkişafı vasitəsilə kiçik əmtəə təsərrüfatlarının maliyyə resurslarına çıxışını təmin etmək; - mülkiyyət hüququnun müdafiəsini və müqavilə üzrə öhdəliklərin yerinə yetirilməsini təmin edən

ümumi şəraitin yaradılmasına yardım göstərmək; - sinergetik effektə və miqyasdan qənaət effektinə nail olmaq məqsədilə üfüqi və şaquli inteqrasiya üçün daha əlverişli şəraitin yaradılmasını təmin etmək; - keyfiyyətli bazar infrastrukturunun sürətli formalaşmasına köməklik göstərmək.

4. Aqrar sahə işçilərinin əməyinin və investorların motivasiyası. Kənd təsərrüfatı əməyi az cəlbedici, zəif mexanikləşdirilmiş və aşağı ödənişli olaraq qalmaqda davam edir. Həmçinin, əmək potensialından daha hərtərəfli istifadə etmək, işçinin bilik və bacarıqlarını tətbiq etmək üçün maddi, mənəvi və psixoloji xarakterlərin stimullarını birləşdirməyi nəzərdə tutan güclü və dayanıqlı əməyin motivasiyası tələb olunur.

İnvestorlar daha çox gəlir gətirən sahələrə maliyyə yatırımı etməyə meyllidirlər. Odur ki, bu istiqamətdə də aqrar sahə digər sahələrə nisbətən investisiya qoyuluşunda nisbətən geridə qalır. Bu məqsədlə də, aqrar sahəyə investisiya qoyuluşunda yerli və xarici investorların cəlb edilməsi istiqamətində müəyyən tədbirlərin görülməsi vacibdir və burada əsas aparıcı rol dövlətin üzərinə düşür. Çünki, kənd təsəttüfatına investisiya qoyuluşunun təkmilləşdirilməsi və investorlar üçün əlverişli şəraitin yaradılması vacibdir.

Dördüncü elementin fəaliyyətində nəzərdə tutulur: -iqtisadiyyatın ayrı-ayrı sahələri ilə bağlı qəbul edilmiş məqsədli dövlət proqramlarında nəzərdə turulmuş kadr potensialının inkişaf etdirilməsini əhatə edən tədbirlər planının işlənib hazırlanması və təsdiq edilməsi, bundan irəli gələn təlim və idarəetmə kadrlarının və mütəxəssislərinin hazırlanması, ixtisaslarının artırılması işinin qurulması; -kənddə işsizliyinin azaldılması və qeyri-kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olanların sayının artırılması üzrə tədbirlər kompleksini həyata keçirmək; - konkret sosial problemlərin həlli sahəsində kənddə əsas sosial qruplar arasında tərəfdaşlıq münasibətlərini qurmaq: dövlət, cəmiyyət və biznes arasında qarşılıqlı əlaqələri inkişaf etdirmək; -“insan kapitalı”nın təkrar istehsalı inkişafının təkmilləşdirilməsinə imkan verən şəraitin yaradılması; -intellektual kapitalın inkişafına şərait yaratmaq və keyfiyyətli təhsil almağa kömək etmək; -kənd ailəsi institutunu əmək və mənəvi tərbiyə mərkəzi kimi möhkəmləndirmək; -sosial, mühəndislik və memarlıq infrastrukturunu inkişaf etdirmək.

5. Kənd təsərrüfatı istehsalının monitorinqi. Kənd təsərrüfatında radikal dəyişikliklər aqrar sahənin təkrar istehsalı prosesinin iştirakçıları arasında qarşılıqlı fəaliyyətin təşkilinin yeni formalarının axtarılıb müəyyənləşdirilməsi aktuallığını şərtləndirir [3, s.85]. Kənd təsərrüfatı məhsullarının marketinqinin inkişafı bu sahədə əsas problemlərindən biri olan səmərəli satış sisteminin formalaşdırılmasına yardım edəcəkdir.

Beşinci elementin fəaliyyəti bir çox problemlərin həll edilməsinə istiqamətləndirilir: -tələb və təklifin stimullaşdırılması vasitəsilə kənd təsərrüfatı istehsalçılarına yerli aqrar məhsulların xarici bazarlara təşviqi üzrə agentliyin yaradılması ilə dəstəyin göstərilməsi, ÜTT iştirakçıları tərəfindən vicdansız rəqabət olduğu halda, ona operativ qərar qəbul etmək səlahiyyətinin verilməsi; -əmtəələrin təşviqi ilə bağlı: sərgilər, seminarlar, sertifikatların əldə edilməsinə köməklik göstərən tədbirlərin maliyyələşdirilməsinə dəstək verilməsi; -dövlət tədarük ağentliyi vasitəsilə yerli kənd təsərrüfatı istehsalçılarından dövlət və bələdiyyə ehtiyacları üçün satınalmaların həyata keçirilməsi; əmtəələrin təşviqi ilə bağlı: sərgilər, seminarlar, sertifikatların əldə edilməsinə köməklik göstərən tədbirlərin maliyyələşdirilməsinə dəstək verilməsi; -dövlət tədarük ağentliyi vasitəsilə yerli kənd təsərrüfatı istehsalçılarından dövlət və bələdiyyə ehtiyacları üçün satınalmaların həyata keçirilməsi; -"Pulsuz yeməkxana", "Ərzaq dəstləri» layihələri vasitəsilə sosial kartların, sosial təminat orqanlarının və qeyri-kommersiya təşkilatları qrantlarının verilməsi mexanizminin işlənilməsi ilə aztəminatlı vətəndaşların və təqaüdçülərin müştəri tələbatına dəstək proqramlarının həyata keçirilməsi; -aqrobiznes üzrə bütün təsərrüfat formaları və aqrar sahədə kənd təsərrüfatı məhsulları istehsalçılarının, emal və xidmət strukturlarının və digər tərəfdaşların tələbatını təmin etmək

üçün hər bir vasitə və informasiya verən mənbədən istifadə etməklə informasiya bazasının yaradılması; aqrobiznes üzrə bütün təsərrüfat formaları və aqrar sahədə kənd təsərrüfatı məhsulları istehsalçılarının, emal və xidmət strukturlarının və digər tərəfdaşların tələbatını təmin etmək üçün hər bir vasitə və informasiya verən mənbədən istifadə etməklə informasiya bazasının yaradınlması; -aqrar sahənin mövcud ümumtəhsil və inzibati strukturları əsasında konsultativ sistemin yaradılması, bu sistemin normativ və hüquqi bazasının fəaliyyətinin təmin edilməsi; -aqrar iqtisadiyyatda innovasiyalar haqqında operativ informasiyanın yayılması sisteminin səmərəli işləməsini təmin etmək; -aqrobiznes subyektləri münasibətlərinin peşəkar səriştəliliyinin və məlumatlılığının artırılması hesabına bazar münasibətlərinə uyğunlaşmasını sürətləndirmək.

**Aqrar sahədə transformasiya proseslərinin strateji idarə edilməsinin konseptual modeli**

Tədqiqat işində aqrar sahənin inkişafı üzrə məqsədlər aşacının elementlər və onların fəaliyyətinin təşkil edilməsi bilavasitə aqrar sahədə transformasiya proseslərinin strategi idarə edilməsinin konseptual modelinin işlənilməsini şərtləndirir. Bu baxımdan həmin sferada transformasiya proseslərinin strateji idarə edilməsinin konseptual modeli tərtib edilmişdir (şəkil 4).




**Şəkil 4. Aqrar sahədə transformasiya proseslərinin strateji idarə edilməsinin konseptual modeli**

*Qeyd:* [4, s.9-15; 5, s.14-17] əsasında müəllif tərtib etmişdir

Strateji məqsədlərin həyata keçirilməsinin idarə edilməsi üzrə beynəlxalq təcrübə göstərir ki, onların əldə edilməsi dövlət hakimiyyəti orqanlarının strateji məqsədə nail olmaq üçün yönəldilmiş qərarların qəbul edilməsi və həyata keçirilməsinin səmərəli mexanizmini qurmaq bacarığından çox asılıdır [6, s.32-43; 11, s. 120-123].

Ölkəmizdə aqrar sahənin inkişafında əlverişli innovasiya mühitinin yaradılması, kiçik innovasiya müəssisələrinin stimullaşdırılması, yeni istehsal texnologiyalarının tətbiqi məsələlərində dövlət müdaxiləsinin çoxcəhətli iqtisadi alətləri tətbiq edilir: indikativ qiymətqoyma, kreditləşmə və sığortanın dəstəklənməsi, vergitutma üzrə güzəştlər, subsidiyalaşdırma, proqram-məqsədli idarəetmə və s. Fikrimizcə, bu qeyd edilmiş alətlərdən istifadənin gerçəkləşdirilməsi aşağıdakı istiqamətlərdə ciddi şəkildə düzəlişin aparılmasını tələb edir:

- xüsusi əhəmiyyətli məhsul növlərinin, ilk növbədə heyvandarlıq, bitki yem proteinləri, dənli və dənli-paxlalı bitkilərin istehsalı üzrə müəyyən proqramların maliyyələşdirilməsi şəklində dövlətin birbaşa iştirakı;
- infrastruktur elementlərinin (dövlət-özəl tərəfdaşlığı) maliyyələşdirilməsi;
- fərqli vergiqoyma səviyyəsi tətbiq etməklə aqrobiznesin dolayı yolla tənzimlənməsi.

Kənd təsərrüftaı məhsullarının istehsalı üzrə nəzərdə tutulan proqramlarda dövlətin birbaşa maliyyələşmə prosesində iştirakı dövlət tənzimlənməsi alətlərinin konkret metodlarla tətbiq edilməsi üzrə məntiqi bağlılığı və uyğunluğu müəyyən edən normativ hüquqi aktların məcmusundan irəli gəlir. Bu zaman əsas istiqamətlər olaraq aşağıdakıların seçilməsi məqsədəuyğun hesab edilir:

- innovativ biznesin formalaşdırılması və inkişafı üzrə tədbirlər sisteminin müstəqil hədəf blokunun sərbəstləşdirilməsi ilə özəl investorların vəsaitlərinə və fəaliyyətdə olan mexanizmlərə vəsaitin xərclənməsinə yenidən baxılmasına üstünlük verilməsi əsasında innovasiyalı aqrar biznesin dəstəklənməsi üzrə dövlət proqramının hazırlanması;
- “əkin” lərin maliyyələşdirilməsi (innovativ məhsulun ticarət perspektivlərinin əsaslandırılması və öyrənilməsi üçün geri ödənilməməklə büdcə vəsaitlərinin ayrılması), pay (büdcədən verilən kredit formasında) və vençur müəssisənin maliyyələşdirilməsi (kiçik investisiya firmaları və ya vençurların yaradılması) mexanizmlərini əhatə edən “elm-istehsalat” innovasiya tsiklinin fasiləsizliyi və davamlılığının təmin edilməsi.

Bu istiqamətdə artıq Azərbaycan hökuməti tərəfindən müəyyən addımlar atılmışdır. Belə ki, 14 iyul 2016-cı ildə qəbul edilmiş “Elm haqqında” Azərbaycan Respublikasının Qanunu Maddə 4-də “Elmi innovasiya sahəsində dövlət siyasətinin əsas istiqamətləri” qeyd edilmiş, həmçinin 6-cı Fəsil, Maddə 34-də “Elmi və elmi-texniki fəaliyyətin maliyyələşdirilməsi”nin dövlət büdcəsinin vəsaiti, elmi fəaliyyət subyektlərinin öz vəsaitləri, dövlət fondlarının vəsaitləri, kreditlər, qrantlar, ianələr və digər qanuni mənbələr hesabına həyata keçirilməsi nəzərdə turulmuşdur.

Ölkə səviyyəsində infrastruktur elementlərinin maliyyələşdirilməsi çərçivəsində icra hakimiyyəti orqanlarının strateji planında idarəetmə fəaliyyətinin əsas predmeti kimi infrastruktur layihələri nəzərdə tutulur. Onların uğurla həyata keçirilməsi əsasən dövlət-özəl tərəfdaşlıq institutunun formalaşdırılmasından asılıdır. Belə layihələrin icrası zamanı infrastruktur obyektlərinə görə dövlət, istehsal obyektlərinin, innovasiya müəssisələrinin və s. tikintisinə görə isə biznes fəaliyyəti məsuldur. İnkişaf etmiş ölkələrdə innovativ infrastrukturun formalaşdırılması sayəsində innovasiya prosesi çox effektiv olur və onun əsas bloklarına maliyyə, istehsalat-texniki (maddi), informasiya, kadr, ekspert-konsaltinq bloku daxildir.

Biznes fəaliyyətinin dolayı tənzimlənməsi ümumi xarakterli tədbirləri özündə əks

etdirməklə ölkənin aqrar iqtisadiyyatının möhkəmləndirilməsinə yönəldilir. Bu, ilk növbədə, sahibkarlıq şəraitinin formalaşmasına aid olan təsərrüfat fəaliyyətinin aparılmasının institusional çərçivəsi kimi başa düşülür. İnkişaf etmiş ölkələrdə biznes fəaliyyətinin əsas istiqamətlərdən biri birbaşa dövlət maliyyələşməsinin azaldılması ilə innovasiya sahəsinin vergi stimullaşdırılmasının gücləndirilməsi hesab edilir. İnnovasiya fəaliyyətini stimullaşdıran xüsusi vergi güzəştlərinə tədqiqatların cari qeyri-kapital xərclərinin silinməsini, elmi-tədqiqat və layihə-konstruktor işlərinə ayrılmış xərclərin silinməsinin müəssisə üçün mümkün olan müddətə keçirilməsini və bu məqsədlə istifadə ediləcək bina və avadanlıqların sürətli amortizasiyasını, müəssisələrin layihə-konstruktor işlərinə çəkilmiş xərclərinin faizinə bərabər olan hesablanmış mənfəət vergisinin azaldılmasına imkan verən vergi kreditini və s. aid etmək olar.

Aqrar sahədə sistemli transformasiya proseslərinin strateji idarə edilməsinin əsas elementlərindən biri də kənd təsərrüfatında monitorinqin aparılması və onun səmərəliliyinin qiymətləndirilməsi hesab edilir. Strateji idarəetmənin qiymətləndirməsinin monitorinqi onun realizasiyasının təmin edilməsi və daimi aktuallığının saxlanılması məqsədi ilə həyata keçirilir. Monitorinqin nəticələri nəzərə alınmaqla kənd təsərrüfatındakı ehtiyatların istifadəsinin effektivliyinin artırılması, strateji planın məqsəd və fəaliyyətinin korrektə edilməsi ilə bağlı qərarlar qəbul edilir və bu da alınan nəticələrin göstəricilər sistemi vasitəsilə keyfiyyət və kəmiyyət dəyişikliklərini qiymətləndirməyə imkan verəcəkdir.

**Nəticə**

Azərbaycanda kənd təsərrüfatının sosial-iqtisadi inkişafının yüksək tempi uzunmüddətli perspektivdə təklif olunan strateji istiqamətlərin reallaşmasından kəskin şəkildə asılıdır. Bu baxımdan, aqrar biznes sosial-iqtisadi mühitə maksimum dərəcədə inteqrasiya olunmalı, fəaliyyətin nəticələrinə görə isə əhalinin həyat keyfiyyətinin yeni səviyyəsini formalaşdırmalı və cəmiyyətin ehtiyaclarına zidd olmamalıdır. Həmçinin, dövlət orqanlarının fəaliyyəti, əhaliyə göstərilən sosial xidmətlərin üsul və formaları, dövlətin vergi və büdcə siyasətinin əsas prioritetləri kənd təsərrüfatının inkişafına, o cümlədən ölkədə investisiya fəaliyyətinin səmərəliliyinin artırılmasına cavab verən əlverişli şəraiti təmin etməlidir. Bu qeyd etdiklərimizə nail olmaq üçün aqrar sahədə sistemli transformasiya proseslərinin strateji idarə edilməsinin əsas elementlərinin həyata keçirilməsi kənd təsərrüfatında monitorinqin mütəmadi olaraq aparılması və onun səmərəliliyinin qiymətləndirilməsi vacib şərtlərdəndir.

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI**

1. “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”//Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı-Bakı: 2016.-177s.
2. Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı //Azərbaycan Respublikası Prezidentinin 29 yanvar 2019-cu il tarixli Fərmanı. –Bakı: -2019, № 500
3. İsmayılov, V.İ. Kənd təsərrüfatı məhsullarının iqtisadi tənzimlənmə mexanizmlərinin təkmilləşdirilməsi / V.İ. İsmayılov. -Bakı: -Müəllim. -2021.-318 s.
4. Буздалов, И.Н. Аграрная политика: научные основы, методы и механизмы осуществления (начало) //-Москва: Экономика сельскохозяйственных и перерабатывающих предприятий, - 2014. -№4,- с. 9- 15
5. Гонова, О.В. Аргументация механизма государственной поддержки регионального сельскохозяйственного производства // -Ивановск: Вестник Университета, -2013. № 23, -

с.14-17

6. Иванова, Н.В. Стратегия синергетического развития отраслей аграрной сферы в региональной экономике России //-Москва: Вестник университета,-2011. № 8, 32-43
7. Коломийченко, О.В. Стратегическое планирование развития регионов России: методология, организация / О.В.Коломийченко. - СПб.: Наука, - 2014. -198 с.
8. Матюнина, О. Ю. Стратегия развития аграрного сектора АПК самодостаточного региона /Диссертация на соискание ученой степени кандидата экономических наук. /- Воронеж, 2006. -353с.
9. Минцберг, Г. Стратегический процесс: концепции, проблемы, решения / Г. Минцберг, Дж. Б.Куинн, С. Гошал; -СПб.: Питер, - 2001. - 534 с.
10. Рохчин, В.Е. Система стратегического планирования социально-экономического развития регионов России: теоретико-методологический аспект / В.Е. Рохчин, И.И. Егоров, К.Н.Знаменская [и др.]; -СПб: ИРЭ РАН, -2005. -168 с.
11. Савенкова О.Ю. Деструктивные процессы в области формирования сельского рынка труда и направления его развития // Стратегия социально ориентированного развития сельских территорий. Научное обозрение: теория и практика, -Тула: ТулГУ,27-28 апреля 2016,- 2016, - с.120-123
12. Савенкова, О.Ю.Социално ориентированное развитие сельских территорий: проблемы и пути решения / О.Ю.Савенкова, И.Н.Меренкоа // -Москва: Фундаментальные исследования, -2015. №9 (часть 1), -с.156-159
13. Третьякова, Л.А. Устойчивое сельское развитие в контексте ментальности населения сельских территорий России/Л.А.Третьякова// -Москва: Дайджест-финансы, - 2013. № 5, -с.53-57
14. Bogdanov N., Rodić V. Agriculture and agricultural policy in Serbia // Agricultural Policy and European Integration in South Eastern Europe / T. Volk et al. (ed.). FAO, Budapest, 2014. P. 153-166.
15. “Doing Business 2020”. Comparing Business Regulation in 190 Economies / World Bank Group, - 2020, -50с.
16. Decoupling natural resource use and environmental impacts from economic growth. UNEP: http://www.unep.org/

**Аббас Сафаров**

## КОНЦЕПТУАЛЬНЫЕ АСПЕКТЫ СТРАТЕГИИ ТРАНСФОРМАЦИИ СЕЛЬСКОГО ХОЗЯЙСТВА В АЗЕРБАЙДЖАНЕ

***Резюме***

В статье на основе комплексного анализа процесса трансформации сельского хозяйства в Азербайджане и оценки его конкурентоспособности выявлены негативные системообразующие факторы, препятствующие качественному росту и повышению эффективности институционализации. При этом приводится экономическая модель объекта стратегического управления, основанная на определении содержания и результатов различных стратегий.

В статье сформулирована концептуальная модель стратегического управления трансформационными процессами в аграрной сфере на основе дерева целей и организации деятельности его элементов, состоящая из совокупности основных целей, обеспечивающих развитие аграрной сферы.

***Цель*** – построение дерева целей, состоящего из комбинации основных целей, обеспечивающих развитие аграрной сферы, и разработка концептуальной модели стратегического управления трансформационными процессами в аграрной сфере.

***Методология*** – в исследовательской работе использованы методы экономико-статистического и сравнительного анализа.

***Результаты исследования*** – на основе определения содержания и результатов различных стратегий дана экономическая модель объекта стратегического управления, выделены основные преимущества концептуальной модели стратегического управления трансформационными процессами в аграрной сфере.

***Ключевые слова:*** *сельское хозяйство, трансформация, стратегия, эффективность, дерево целей, концептуальная модель*

**Abbas Safarov**

## CONCEPTUAL ASPECTS OF THE STRATEGY OF TRANSFORMATION OF AGRICULTURE IN AZERBAIJAN

***Summary***

Based on a comprehensive analysis of the process of transformation of agriculture in Azerbaijan and an assessment of its competitiveness, the article identifies negative system-forming factors that hinder qualitative growth and increase the effectiveness of institutionalization. At the same time, an economic model of the object of strategic management is given, based on the definition of the content and results of various strategies.

The article formulates a conceptual model of strategic management of transformational processes in the agricultural sector on the basis of a tree of goals and the organization of its elements, consisting of a set of main goals that ensure the development of the agricultural sector.

***Purpose of the research*** – goal is to build a goal tree consisting of a combination of the main goals that ensure the development of the agricultural sector and the development of a conceptual model of strategic management of transformational processes in the agricultural sector.

***Methodology*** – methods of economic-statistical and comparative analysis are used in the research work.

***Findings*** – based on the definition of the content and results of various strategies, an economic model of the object of strategic management is given, the main advantages of the conceptual model of strategic management of transformational processes in the agricultural sector are highlighted.

***Keywords*:** *agriculture, transformation, strategy, efficiency, goal tree, conceptual model*